

# Beynəlxalq əlaqələrin hüquqi əsaslarını möhkəmləndirən və ölkəmizin strateji maraqlarına xidmət edən səfər

*Azərbaycanın zəngin dövlətçilik tarixi dedikdə Ulu Öndər Heydər Əliyevin misilsiz mirası yaddaşları təzələyir. Müasir Azərbaycan dövlətçiliyinin banisi, həm də xalqın yaddaşında əbədi yaşayan bir liderdir. Ümummilli Liderin siyasi irsi yalnız ölkənin taleyində dönüş yaratmaqla kifayətlənmir, həm də hər bir azərbaycanlının qəlbində özünəməxsus yer tutur. Heydər Əliyev sadəcə bir siyasətçi deyil, millətin ruhunu, düşüncəsini özündə cəmləşdirən əsl fenomen idi. Bu gün Azərbaycanda elə bir insan tapmaq çətindir ki, onu öz lideri, öz doğması kimi qəbul etməsin. Əslində, Heydər Əliyevi xalqın yaddaşında ölməz edən, onu unudulmaz edən də məhz bu doğmalıq hissidir.*

Xüsusi vurğulanmalıdır ki, ulu öndər hakimiyyətə gəldiyi ilk illərdən etibarən xüsusilə qonşuluq münasibətlərinə diqqət yetirmiş, regionda Azərbaycanın inkişafının məhz bu yolla mümkünlüyünü görmüşdü. Bu çərçivədə atılan addımlar yenicə çiçəklənən Azərbaycanın gələcək həyatına olduqca müsbət təsir göstərmiş, qazanılan uğurların böyük bir hissəsi ulu öndərin siyasi, iqtisadi, sosial və mədəni sahədə peşəkar manevrləri sayəsində mümkün olmuşdur. Məhz bu kimi addımlardan biri də Ulu Öndər Heydər Əliyevin 2002-ci ilin 24-26 yanvar tarixlərində Rusiya Federasiyasına dövlət səfəridir.

Səfərin təfərrüatlarından əvvəl bildirmək lazımdır ki, hələ Sovet İttifaqı dönəmində Ulu Öndər Heydər Əliyev Kremldə yüksək vəzifədə çalışarkən öz zəkası, bacarığı və müdrik qərarları ilə təkcə sovet xalqlarının deyil, həm də rusiyalıların ürəyində dərin iz qoymuşdur. Onun adı, məharətli idarəçilik və strateji liderlik xüsusiyyətləri ilə dövrün ən görkəmli dövlət xadimləri sırasında xüsusi hörmətlə çəkilirdi. Bu gün Rusiya Federasiyasının inkişafına böyük töhfələr verən Baykal-Amur Magistralının tikintisinin uğurla başa çatdırılmasında Heydər Əliyevin oynadığı həlledici rol Rusiyanın rəhbərliyi və xalqı tərəfindən hər zaman yüksək qiymətləndirilib. Bu tarixi xidmət onun beynəlxalq səviyyədə tanınan dahi lider olduğunu bir daha sübut edir. Müstəqillik qazandıqdan sonra da Heydər Əliyev Azərbaycanın xarici siyasətində Rusiya ilə strateji münasibətlərin əhəmiyyətini daim ön planda tutmuşdur. Bu uzaqgörən siyasətin nəticəsi olaraq, Ulu Öndər hakimiyyəti illərində müstəqil Azərbaycanın Prezidenti kimi Rusiya Federasiyasına 20 dəfə səfər etmişdir. Onun bu səfərləri Azərbaycan-Rusiya əlaqələrinin daha da dərinləşməsində, yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynamışdır. Xüsusilə, 1997-ci il iyulun 2-4-də Heydər Əliyevin Rusiyaya üçgünlük dövlət səfəri ikitərəfli münasibətlərin tarixində əlamətdar bir mərhələ olmuşdur. Bu səfər çərçivəsində 1997-ci il iyulun 3-də imzalanan "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə" Rusiya-Azərbaycan əlaqələrinin hüquqi əsaslarını möhkəmləndirən və bu münasibətlərin inkişafına yol açan strateji sənəd olmuşdur.

Heydər Əliyevin uzaqgörənliyi və tarixi missiyası Azərbaycanın Rusiya ilə münasibətlərində sarsılmaz bir təməl yaratdı. Ulu Öndər hesab edirdi ki, güclü tərəfdaşlıq yalnız ölkələrin rifahına deyil, həm də regional və qlobal sabitliyə töhfə verir. İndi bu siyasətin bəhrələri Rusiya və Azərbaycan xalqları arasında dostluq və qarşılıqlı etimad şəklində öz əksini tapır.

Məhz sözügedən səfər münasibətlərin qurulmasında xüsusi bir dövr kimi yadda qaldı. Bu səfər Azərbaycanın xarici siyasətinin özülündə dayanan praqmatik, lakin dostluq prinsiplərinə əsaslanan yanaşmanın parlaq nümunəsidir. Prezident Heydər Əliyevin siyasi iradəsi, uzaqgörənliyi və liderlik bacarığı bu səfərdə əyani şəkildə özünü göstərdi. Səfər çərçivəsində imzalanan sənədlərin və qarşılıqlı dəstəklə xarakterizə olunan liderlərin dialoqunun miqyası, təkcə iki ölkə arasında deyil, bütün regionda siyasi və iqtisadi əlaqələri gücləndirmək baxımından da önəmli bir əhəmiyyət daşıyırdı. Azərbaycanla Rusiya arasındakı əməkdaşlıq təkcə enerji sektorunda deyil, həm də mədəniyyət, elm, təhsil kimi sahələrdə yeni imkanların açılmasına şərait yaratdı.

İlk olaraq 2002-ci il yanvarın 25-də Rusiya Federasiyası Prezidentinin Novo-Oqaryovadakı iqamətgahında Prezident Heydər Əliyevlə Vladimir Putin arasında gerçəkləşən təkbətək görüş Azərbaycan-Rusiya münasibətlərində yeni bir səhifənin başlanğıcı kimi qiymətləndirildi. Bu görüş hər iki liderin strateji baxışını və əməkdaşlıq ruhunu dərinləşdirmək iradəsini əks etdirdi. Liderlər iqtisadi, siyasi, humanitar və digər sahələrdə əməkdaşlıq perspektivlərinin geniş olduğunu vurğulayaraq, beynəlxalq və regional məsələlərdə bir-birinə göstərdikləri qarşılıqlı dəstəyi özəlliklə qeyd etdilər. Prezident Heydər Əliyevin səmimi və konstruktiv yanaşması onun beynəlxalq arenada müsbət imicini daha da möhkəmləndirdi. Bu görüşdə Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məsələsi üzrə geniş fikir mübadiləsi aparıldı, münaqişənin həllində Rusiyanın həlledici rolu vurğulandı. Vladimir Putin isə ölkəsinin bu istiqamətdə səylərini daha da gücləndirəcəyini bildirdi. Bu, beynəlxalq səviyyədə Azərbaycanın haqq səsinin çatdırılmasında əhəmiyyətli bir addım idi.

Eyni gündə keçirilən görüşlər çərçivəsində Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında bir sıra vacib sənədlər imzalandı. Bu sənədlər iki ölkənin strateji müttəfiqliyini rəsmi olaraq təsdiqlədi. 2010-cu ilədək olan dövrdə uzunmüddətli iqtisadi əməkdaşlıq haqqında müaqavilə, Qəbələ Radiolokasiya Stansiyasının istifadəsi barədə saziş və ən əsası "Xəzər dənizində əməkdaşlıq prinsipləri haqqında Birgə Bəyannamə" iki ölkə arasındakı münasibətləri yeni, daha yüksək bir mərhələyə - strateji tərəfdaşlıq səviyyəsinə qaldırdı. Bu Bəyannamə yalnız Rusiya ilə Azərbaycanın deyil, bütövlükdə Xəzər regionunun sabitliyinə və inkişafına xidmət edən bir yol xəritəsi oldu. Bu sənədlər iqtisadi-ticarət əlaqələri, həmçinin strateji əməkdaşlıq üçün möhkəm təməl yaratdı. Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici siyasətində tarazlı və real yanaşma bu sazişlərdə öz əksini tapdı. Sözügedən razılaşmalar, Azərbaycanın beynəlxalq ticarət və enerji təhlükəsizliyi sahəsində önəmli müttəfiq kimi yerini daha da möhkəmləndirdi. Xəzər dənizinin karbohidrogen ehtiyatlarının birgə işlənilməsi və nəqli kimi sahələrdə əməkdaşlıq regional iqtisadiyyatı inkişaf etdirmək baxımından əvəzolunmaz bir əhəmiyyətə malik idi.

Yanvarın 25-də Rusiya Prezidenti Vladimir Putin Azərbaycan liderinin şərəfinə rəsmi ziyafət təşkil etdi. Tədbirdə çıxış edən Prezident Heydər Əliyev çox dərin və təsirli bir nitq söyləyərək bildirdi ki, Azərbaycan-Rusiya dostluğu tək cari maraqların deyil, həm də tarixi bağların və xalqların uzun illər boyu qura bildiyi münasibətlərin təcəssümüdür.

Prezident Heydər Əliyevin Rusiya səfəri çərçivəsində ən diqqətçəkən hadisələrdən biri M.Lomonosov adına Moskva Dövlət Universitetinin fəxri professoru adına layiq görülməsi idi. Bu mükafat Heydər Əliyevin beynəlxalq səviyyədə mədəniyyət, elm və təhsilə verdiyi böyük dəyərə verilən qiymət idi. Rektor V.Sadovniçi Heydər Əliyevin elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığın dərinləşməsindəki xidmətlərini təqdir edərək, bu addımın iki xalq arasında münasibətlərin gücləndirilməsinə xidmət etdiyini qeyd etdi. Səfərin sonunda Moskvada Azərbaycan Beynəlxalq Bankının törəmə bankının açılışında çıxış edən Prezident Heydər Əliyev bunları bildirdi: "Mənim Rusiya Federasiyasına çox uğurlu keçmiş dövlət səfərim başa çatır. Mən bu səfərdən son dərəcə məmnunam".

Heydər Əliyevin bu səfəri Azərbaycanı beynəlxalq müttəfiqləri ilə daha da yaxınlaşdıran, ölkənin strateji maraqlarını qoruyan və diplomatik uğurların zirvəsi oldu. Ulu Öndərin adı məhz bu kimi diplomatik missiyalarla ölkəmizin tarixində qızıl hərflərlə yazılıb. Azərbaycan-Rusiya əlaqələrinin bu günə qədər davam edən möhkəmliyi məhz onun uzaqgörən siyasətinin nəticəsidir.

**Nurlan ABDALOV,**
**"Respublika".**